Ədəbiyyat Qəzeti

# Vasif QULİYEV - 70



Hörmətli Vasif müəllim!

Sizi - tanınmış yazıçı-publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 17 yanvar 1954-cü ildə Şuşa rayonunun Malıbəyli kəndində anadan olmusunuz. Orta təhsilinizi Xankəndində almış, əmək fəaliyyətinizə Xankəndindəki elektrotexika zavodunda yığıcı-çilingər kimi başlamış, 1974-ci ildə Bakı soyuducular zavodunda əmək fəaliyyətinizi davam etdirmiş, hərbi xidmətinizi başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almısınız. 1982-1984-cü illərdə Azərbaycan Dövlət Televiziya Verilişləri Komitəsində çalışmısınız.

Siz jurnalist fəaliyyətiniz boyunca Azərbaycan, xüsusilə Şuşanın, doğma Qarabağımızın tarixini tədqiq və təbliğ etmisiniz. "Ucalığa gedən yol", "Maarif fədaisi", "Enək İsa bulağına", "Əgər Şuşalısansa", "Vətən bağı al-əlvandır", "Dünənə uzanan cığır", "Ən yaxşı dost", "Ötən günlərimi qaytaraydılar", "Mənim babam kim olub" və sair kitablarınız maraqla oxunur.

Siz Q.Quların "Mafiya tarixi", B.Veliçkonun "Qafqaz", S.Qlinkanın "Ermənilərin Azərbaycana köçürülməsi", İ.Çavçavadzenin "Erməni alimləri və fəryad edən daşlar" və bu sıradan 20-dən çox əsəri dilimizə çevirib, nəşr etdirmisiniz.

Hazırda "Günəş" uşaq jurnalının baş redaktoru və "Şuşa" nəşriyyatının direktoru kimi əmək fəaliyətinizi davam etdirirsiniz. Səmərəli fəaliyyətinizə görə Azərbaycan Prezidenti tərəfindən "Tərəqqi" və "Azərbaycan Cümhuriyyətinin 100 illiyi" yubiley medalı ilə təltif edilmisiniz. Sovetlər dönəmində "Qızıl qələm" mükafatına layiq görülən ilk jurnalistlərdənsiniz.

Hörmətli Vasif müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, sizə cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**